AZƏRBAYCAN XƏBƏRLƏRİ

AXCP rayon şöbəsinin sədri 30 sutka həbs edilib

Noyabr 13, 2026



Elnur Yusubov

Azərbaycan Xalq Cəbhəsi Partiyası (AXCP) Sabunçu rayon şöbəsinin sədri **Elnur Yusubov** 30 sutka müddətinə inzibati qaydada həbs olunub.

Bu barədə partiya onun ailəsinə istinadən məlumat yayıb. Bildirilir ki, E.Yusubov təcridxanadan ailəsinə zəng vuraraq həbsi barədə özü xəbər verib.

Rəsmi qurumlardan bu məlumata münasibət öyrənmək mümkün olmayıb.

12 noyabr

Xalq Cəbhəsinin rayon şöbəsinin sədri yoxa çıxıb, avtomobili isə yerindədir

Azərbaycan Xalq Cəbhəsi Partiyası (AXCP) Sabunçu rayon şöbəsinin sədri **Elnur Yusubov**un yerinin məlum olmadığını açıqlayıb.

Partiyadan verilən məlumata görə, o, noyabrın 12-də səhər tezdən işə getmək üçün evdən çıxıb və hazırda ona zəng çatmır.

"Ailəsindən verilən məlumata görə, o, hər gün işə şəxsi avtomobili ilə gedir. Bu gün isə işə gedib çatmayıb, avtomobili də yerində qalıb. Maraqlı məqam odur ki, maşının qapısı açıq, açarı da içində olub. Ehtimala görə, uşaqlarını məktəbə aparıb-gətirən ailə üzvlərinin istifadə edə bilməsi üçün maşını açıq saxlayıb", – AXCP-dən bildirilib.

Partiya onun saxlanıldığını güman edir.

Hələlik bu məsələ ilə bağlı Daxili İşlər Nazirliyi və digər rəsmi qurumlardan münasibət almaq mümkün olmayıb.

Xatırlatma

Son illər AXCP-nin bir çox üzvü vaxtaşırı inzibati qaydada həbs edilir. Hazırda partiyanın 20-dən çox fəalı uzunmüddətli həbsdədir. Onların arasında AXCP sədri Əli Kərimli də var. Həmin şəxslər müxtəlif ittihamlarla üzləşsələr də, partiya onların siyasi sifarişlə həbs olunduğunu bildirir.

Hüquq müdafiəçilərinin hazırladığı son siyahıya əsasən, Azərbaycan həbsxanalarında ümumilikdə 322 siyasi məhbus var. Amma rəsmilər, bir qayda olaraq, ölkədə siyasi fəaliyyətə görə həbslərin olması ilə bağlı iddiaları əsassız sayırlar. Onlar vurğulayırlar ki, həmin şəxslər sırf törətdikləri əməllərə görə mühakimə ediliblər.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur